# "Fikrət Qocanın poetik dünyası"

Dünya öz işindədir. Yenə zaman keçir, aylar aylara calanır, fəsillər dəyişir, illər illəri qovur. 2018-ci il də dünəndə qaldı, tarixə qovuşdu, yerini yeni təqvim ilinə verdi. 2019 gəldi. Xoş gəldi və bütün anlamlarda dünyamıza XOŞ BƏXTlik gətirsin!..

Amma illər, sadəcə getmir, ömrümüzdən "pay" almır, həm də ömrümüzdə öz izlərini də qoyur, yaxşı, ya da pis. Sözüm yaxşısı haqqındadı...

Ötən ilin son günlərində AYB-nin Natəvan klubunda yazıçı-publisist, Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Əhmədlinin dəyərli bir kitabının təqdimatı oldu. Salatın Əhmədli bu dəfə mötəbər bir mənbəyə - Xalq şairi, AJB-nin birinci katibi Fikrət Qocaya müraciət edib, "Fikrət Qocanın poetik dünyası"nı araşdırıb, ortaya son dərəcə sanballı bir kitab qoyub. AYB-nin katibi İlqar Fəhminin də dediyi kimi, kitabda iki insanın portreti aydın görünür. "Həm Salatın Əhmədlinin özünün, həm də Salatın xanımın mənəvi ruhani güzgüsündə əks olunan Fikrət Qocanın portreti. Yəni insan içində insan görürük burda..."

Mənim "fırça"mda isə Salatın Əhmədlinin portreti belədir: ədəb-ərkanlı, nəcib, kübar xanım, sədaqətli dost-rəfiqə, istedadlı qələm sahibi, yazıçı-publisist, gözəl pedaqoq-alim, ziyalı... Fikrət Qoca isə elə Fikrət Qocadır! Ağlımız kəsəndən şeirlərini sevə-sevə, suiçimi kimi oxuduğumuz, yaddaşımıza yazdığımız, bu şeirlərin, bu şeirlərə bəstələnən nəğmələrin tərbiyəsi ilə böyüdüyümüz, bütövlükdə, əsərləri ilə bizi mənən varlandıran, zənginləşdirən söz adamı, bir dünya şairi!.. Salatın Əhmədli monoqrafiyada, nəinki Xalq şairi Fikrət Qocanın yaradıcılığını ustalıqla təhlil süzgəcindən keçirib, hətta özünün bir ədəbiyyatşünas alim kimi də nəyə qadir olduğunu təqdim edib. Bu, onun böyük uğurudur. Amma 2018-ci ilin Salatın Əhmədlinin ömrünə yazdığı ilk və son uğur da deyil. Düşünürəm ki, ötən ilin Salatın xanıma ən böyük hədiyyəsi (əlbəttə, öz zəhməti, fədakarlığı ilə qazandığı hədiyyə!) onun doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etməsidir. Hər iki parlaq nailiyyəti münasibətilə əziz Salatın xanımı ürəkdən təbrik edir, uğurlarının davamlı olmasını arzulayıram...

* * *

Yazıçı-publisist Salatın Əhmədlinin yaradıcılığı ilə yaxından tanışam. Ədəbiyyatda öz yolu, öz sözü, öz üslubu var. 12 cildlik seçilmiş əsərlərin, roman və povestlərin, hekayələrin, yüzlərlə bayatının müəllifidir. Diqqətimi daha çox çəkən məqam odur ki, bu xanıma xas olan ədəb-ərkan, ana, qadın ləyaqəti onun əsərlərində də əksini tapıb. Yazıçının xalqına, onun adət-ənənələrinə, mənəviyyatına hörmət və ehtiram hissi, onları yaşatmaq, gələcəyə ötürmək arzusu çox güclüdür. Bu baxımdan, Salatın Əhmədlinin əsərləri, bütövlükdə, bir mənəvi dəyər kimidir. Onun ən böyük xidmətlərindən biri xalq ədəbiyyatı nümunələrini toplamasıdır. Bu mövzuda sanballı kitabları var. O, yaradıcılığının böyük bir hissəsini anası, 100 il ömür yaşamış, sinədəftər Güləbətin anaya həsr edib. Bu el anasının söylədiklərini birər-birər toplayıb. Sonra həyat yoldaşı Tağı müəllimin - Tağı Əhmədovun el-obasının folklorunu, qayınanasından eşitdiyi bayatıları, deyimləri, eləcə də kəndin digər sakinlərindən eşitdiklərini muncuq kimi ipə-sapa düzüb. AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun fikrincə: "Salatın xanım Güləbətin ananın, Qəndab ananın, Tağı müəllimin həmkəndlilərinin dili ilə demək istəyir ki, biz özümüzü, həm də bu yerdə dərk etməliyik - bu xalq ədəbiyyatı nümunələrini oxuya-oxuya, onları toplaya-toplaya. ...Bizim çoxumuzun əhəmiyyət vermədiyimiz bir məsələyə Salatın xanım 300-400 səhifəlik kitab həsr edib. O, nədir? Avropalıların təxminən 150 il bundan əvvəl başladığı bir işi - xatirə deyilən bir janr var, bu, şifahi tarixdir, ailənin tarixidir, kəndin tarixidir, millətin tarixidir. Salatın xanım əsərinin də adını belə qoyur: "Bir elatın dastanı". Bizə göstərmək istəyir ki, o da bir xalq ədəbiyyatı janrıdır. Biz əgər şifahi tariximizi qəlpə-qəlpə, damla-damla öz yaxın adamlarımızdan, qocalarımızdan, uşaqlarımızdan, cavanlarımızdan toplamasaq, o tarix tarix ola bilməz. Yəni yazılı tarix kimi şifahi tarix də olmalıdır."

Salatın Əhmədlinin təbirincə, özümüzü dərk etməyin yollarından biri məhz xalq ədəbiyyatımıza sahib çıxmağımızdadır. Yazıçının "Analar köç edəndə", "Bir elatın dastanı", "Hər kəs yüz il unutmasa" və digər kitablarının ideyası da bundan ibarətdir. O, publisistikası, hekayələri, romanları, elmi əsərləri ilə yaddaşa, tarixə sadiqliyini sübut edib. Bu, Salatın xanımın bir vətəndaş, ədəbiyyatçı, folklorşünas, alim kimi böyüklüyüdür. Bu, onun xalqının milli mənəvi dəyərlərinə bağlılığıdır, "ailə ənənəsi məsələsi"nə bağlılığıdır. Bu, ümumilikdə, Azərbaycan qadınının zənginliyi, gözəlliyidir. Sözün bu yerində, akademik Teymur Bünyadovun Salatın xanım haqqında fikirlərini yada salıram: "Salatın Əhmədli, hər şeydən əvvəl, qadındır, anadır, nənədir, gözəl ailə başçısıdır. Dupduru, tərtəmiz, bəmbəyaz, tələbkar, ana qayğısı ilə dərs verən, yol göstərən müəllimdir, elm adamıdır. Yazıçıdır, görkəmlilərdən görkəmlisidir, ziyalıdır. Və qadın ziyalı olanda iki dəfə gözəl görünür..."

...Mən Salatın xanımın bayatılarını, az qala, əzbər bilirəm. Onun qadın obrazı bu bayatılarda daha aydın görünür. Anasına xitabən söylədiyi bayatıları isə, əslində Anaya ucaldılan mənəvi abidə saymaq olar.

Dağların sinəsinə,
Çən gəldi sinə-sinə.
Mən anamı istərəm,
Baş qoyam sinəsinə...

Bir bağ gördüm bağbansız,
Dəvə gördüm karvansız.
Tanrım, köç etdi getdi,
Neyləyəcəm anamsız...

Gün batar, mən batmaram,
Ay yatar, mən yatmaram.
Ana, sənsizliyimi
Heç bir dərdə qatmaram...

...Bayatılarından söz düşmüşkən, üç il əvvəl, 2016-cı il oktyabrın 20-də Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində Salatın Əhmədlinin 60 illik yubileyi qeyd olunurdu. Möhtəşəm bir gecə idi. Böyük zövqlə hazırlanmış yubiley gecəsini Xalq artisti Mehriban Zəki aparırdı. Onun məharətli aparıcılığı gecəyə xüsusi ovqat bəxş edirdi. Tədbir boyu Salatın Əhmədlinin bayatıları, əsərlərindən parçalar Mehriban Zəkinin təqdimatında insanın ruhuna musiqi kimi süzülürdü. O gecənin yaraşığı, həm də Salatın Əhmədlinin bayatıları idi.

Gecə ulduz axaydı,
Göydə şimşək çaxaydı.
Özgəyə baxan gözlər,
Yenə mənə baxaydı...

Əzizim, qara gözlər,
Süzülür qara gözlər.
Mən yanında durmuşam,
Boylanır hara gözlər?..

O gecə Salatın xanımın təvazökarlığına da bir daha şahid olduq. Söz ona veriləndə özündən bir kəlmə də danışmadı, bircə onu dedi: "İnanıram ki, istirahət edəcəksiniz, zövq alacaqsınız, xüsusilə də musiqidən..."

* * *

...Və "Fikrət Qocanın poetik dünyası" kitabının təqdimatında da həminki sadə, təvazökar Salatın Əhmədli idi. "Sağ olsun Fikrət Qoca, bu şeirləri yazmasaydı, bu monoqrafiya da ərsəyə gəlməzdi..." dedi. İlk baxışda maraqlı görünür, Salatın Əhmədli bu dəfə tədqiqat obyekti kimi nədən Xalq şairi Fikrət Qocanı seçib? Əlbəttə, Fikrət Qoca yaradıcılığı həmişə maraq dairəsində olub, təkcə oxucuları yox, ədəbiyyatşünasları, tədqiqatçıları da cəlb edib, haqqında çox yazılıb, çox deyilib. Bunca yazılanlardan sonra yeni nəsə demək çətin deyil ki? Salatın Əhmədli bu "çətinlik"dən çəkinməyib, "Fikrət Qocanın poetik dünyası" monoqrafiyasında şairin yaradıcılığının cazibəsindən, "insan yetişdirmək" funksiyasından ustalıqla söz açıb. Və sübut edib ki, Fikrət Qoca haqqında hələ deyilməli, yazılmalı çox mətləblər var...

Fikrət Qoca humanist şairdir. Onun poeziyası, məhz humanizm xəmirində yoğrulub. Rəsul Rza ədəbi məktəbinin davamçısı (təqlidçisi yox!) kimi onun yaradıcılığında insan, insana sevgi, insanlığın, bəşəri duyğuların, bəşəri dəyərlərin güclü tərənnümü, zülm və ədalətsizliyə üsyan,




gözəlliyə, xeyirxahlığa çağırış, torpağa, Vətənə bağlılıq, qadına, Anaya xüsusi münasibət əsas yer tutur. Və heç şübhəsiz, Salatın Əhmədlinin şairlə "doğmalaşdıran", ruhən, mənən yaxınlaşdıran səbəblərdən biri də budur. Müəllif monoqrafiyasında Rəsul Rza ilə Fikrət Qoca yaradıcılığı arasındakı mənəvi bağları da əsl tədqiqatçı səriştəsi ilə təhlil edir. Amma İlqar Fəhminin "Fikrət Qocanın poetik dünyası" kitabına yazdığı ön sözdə və təqdimat mərasimində də vurğuladığı kimi, bu, sırf akademik üslubda yazılan kitab deyil. Onun fikrincə: "Salatın xanım Fikrət Qoca yaradıcılığına nə cür yanaşmağın yolunu tapıb - quru akademizmdən kənar, öz qəlbinin səsiylə şairin yaradıcılığında gəzişmək, ən əsas da dünənin və bu günün səsləşən problemlərinə şairin münasibətini üzə çıxartmaq...". Elə buna görə də kitab daha rahat, daha maraqla oxunur. Bu məqam tanınmış naşir, professor Nadir Məmmədlinin də diqqətindən yayınmayıb: "Fikrət Qoca narahat adam olub. O, sevgi aşiqidir, insanlıq aşiqidir. Kitab isə istedadlı jurnalist qələmi ilə yazılıb. Salatın xanıma təşəkkür edirəm - obyekti düz seçib..."

Əslində, Salatın Əhmədli kimi incə zövqlü bir ədəbiyyat adamı, söz sahibi, humanist xanım bu poeziyaya biganə qala bilməzdi. Bunu özü də etiraf edir: "Xalq şairi Fikrət Qocanın on cildlik "Seçilmiş əsərləri" öz sanbalına, bədii keyfiyyətlərinə görə Dövlət mükafatına layiq görüldü. Onun əsərlərində qadın süjeti çoxdur, qadın mövzusu qırmızı xətlə keçir. Poemalar, şeirlər... - hamısı gözəldir. Şairin 80 illik yubileyinə məqalə yazdım, sonra da kitab..."

* * *

Kitab 9 fəsildən ibarətdir. "Fikrət Qocanın söz dünyası", "İnsan-dünya cütlüyü", "Dünya qəlbin aynasıdır", "Sevgiyə bələnmiş ruhun çağırışı", "Fikrət Qocanın musiqi dünyası", "Düşüncə, fikir şairi", "Klassik irsə münasibət", "Fikrət Qoca poeziyasında ana-qadın obrazı", "Sözə, sənətə hörmət və ehtiram"... Salatın Əhmədli monoqrafiyada təkcə Fikrət Qoca yaradıcılığını dərindən mənimsəməyib, onun tədqiqatçılarını da oxuyub, sələflərinin fikirlərinə böyük hörmətlə yanaşaraq, paralellər aparıb. Və bu fəsillərin hər birində onların araşdırmalarına da müraciət edib. O, ustad Rəsul Rzanın "Fikrət Qocanın şeirlərində məni sevindirən bu şeirlərin əksəriyyətində olan qüvvətli yenilik hissidir" fikrini xatırladır. Bəs görkəmli ədəbiyyatşünas alimlər, akademik Bəkir Nəbiyev və Yaşar Qarayevin, akademik İsa Həbibbəylinin, eləcə də Vaqif Yusifli və Gülxani Pənahın... baxış bucağında Fikrət Qoca kimdir, onun zəngin yaradıcılığı hansı dəyərləri ehtiva edir? Salatın xanım monoqrafiyasında bunlara da parlaq işıq salır. Ən əsası, özünün təhlil və qənaətlərində qətiyyən onları təkrar etmir...

Salatın Əhmədli şairin humanistliyini belə təsvir edir: "Onun əsərlərində insanlar arasında fərq qoyulduğunu görmürük. Bu insanlar dünyanın sevincini yaşayanlar da ola bilər, müharibələrin həyatını cəhənnəmə döndərdiyi insanlar da ola bilər, bəşəriyyətə üz qaralığı gətirən Xirosima, Naqasaki dəhşətlərindən bu gün də əzab çəkən yapon xalqı da ola bilər, bu gün, məhz bu gün imperiyaların qan çanağına döndərdiyi Suriya, Fələstin, İraq, Əfqanıstan da ola bilər. Şairi düşündürən irqindən, dinindən, dilindən asılı olmayaraq onunla bir çətirin altında yaşayan bu Yer kürəsinin hər bir sakininin taleyidir. Onların sevincinə sevinir, kədərinə kədərlənir..." Fikrət Qocanın bəşəriliyini, bir dünya şairi olmasını bundan gözəl necə ifadə etmək olar? Salatın Əhmədlinin fikrincə, bu şeirlər "düşünən, kamil bir insanın narahat qəlbinin səsi"dir. Və şair bu "səs"lə həm özünü yaradır, həm də arzuladığı cəmiyyəti tərənnüm edir...

Müəllif bu bölümdə Fikrət Qocanın zəngin bədii təxəyyülündən, şeirlərindəki mükəmməl təbiət lövhələrindən də böyük sevgi ilə söhbət açır. Həmin tablolardan birinə "baxaq"...

Axşamlar sürünüb dağlara sarı,
Zirvəyə baş qoyub yatar buludlar.
Mavi sonsuzluqdur ömür yolları,
Hərdən yağış ələr, hərdən də ki, qar.
Zirvəyə baş qoyub yatar buludlar...

"İnsan-dünya cütlüyü"... "Fikrət Qocanın poetik dünyası"nın ikinci bölümü belə adlanır. Bu bölümdə şairin insan və dünya ilə bağlı poetik düşüncələri təhlil olunur. Müəllif haqlı olaraq bu qərara gəlir ki, "insan sərrafı" olan Fikrət Qocanın poeziyasında "insan birmənalı məxluq deyil, nə "mənfi qəhrəmandır", nə də "müsbət qəhrəman". "İnsandı bu Yer kürəmizin ən ali vətəndaşı" deyən şairin "üzü üzlər görmüş" qarı dünyadan" tələb etdiyi isə mərdlik, düzlük, haqq-ədalətdir. Hətta şair "bapbalaca kürə" hesab etdiyi dünyanı öz arzularına uyğun hala salmaq istəyir:

Bapbalaca kürədi.
Maviliyə bulanıb
Üstü-başı "kirridi".
Onu yağışda yuyub,
Al günəşə sərərəm...
Ən uzaq ulduzlara
Qızıl medalyon kimi
Ovcumda göstərərəm...

"Dünya qəlbin aynasıdır" bölümü sanki əvvəlki hissənin davamıdır. Müəllifin fikrincə, Fikrət Qocanın dünya ilə bağlı istək və arzuları fərdidir, şairanədir, fəlsəfidir.

,

*(Davamı 16-cı səhifədə)*



*(Əvvəli 6-cı səhifədə)*

"Sevgiyə bələnmiş ruhun çağırışı" da Fikrət Qoca poeziyasının orijinallığından bəhs edir. Salatın Əhmədliyə görə, "Şairin sevgisində də adilik, sadəlik əsasdır. Amma bu sadə qəlbin sahibi illərlə gözlədiyi insana söylədiyi sözlər xəfif, titrək bir qəlbin çırpıntılarıdır. Sevgisini dastanlarda, nağıllarda olduğu kimi, odlu, alovlu misralarda ifadə etmir, çox sadə, pafossuz, könül oxşayan bir dillə verir." AYB-nin şöbə müdiri Sayman Aruzun kitabın təqdimat mərasimində söylədiyi fikri xatırlayıram: "Fikrət Qoca, həm də daxili musiqisini öz şeirlərində yaradıb, buna görə də onun şeirləri axıcıdır, insanı yormur və insanın daxilində öz təsvirini, şəklini yarada bilir." Salatın xanım onu da qeyd edir ki, "Fikrət Qocanın şeirlərində "dost" var, "kişi" var, "qadın" var..."

"Fikrət Qocanın musiqi dünyası" da çox geniş və rəngarəngdir. O, lirik şairdir. Onun böyük sevgi və dastanlara bərabər həyat eşqi olan şeirlərindən nəğmə özü bulaq kimi süzülür. Fikrət Qoca yeddi yüzdən çox mahnı mətninin müəllifidir. "Mən şair Fikrətin şeirinə aşiq olmuşam. O, sözlərin hər birisini, sanki neştərlə milyon-milyon çiçəkdən toplayıb. Fikrət Qoca sözün həqiqi mənasında poeziyanın arısıdır..." deyən Ramiz Mirişli onun yüzdən çox şeirinə mahnı bəstələyib. Arif Məlikov, Tofiq Quliyev, Müslüm Maqomayev, Polad Bülbüloğlu, Telman Hacıyev, Ağabacı Rzayeva, Emin Sabitoğlu, Ruhəngiz Qasımova... Bəlkə də, çoxları bilmir ki, təkrar-təkrar dəyişməz sevgi ilə dinlədiyimiz nəğmələrin sözləri məhz Fikrət Qocaya məxsusdur.

*Lay-lay deyir anan sənə,*  
*Taleyinə yanan sənə.*  
*Lay-lay deyir zaman sənə,*  
*Lay-lay deyir əlvan şamlar,*  
*Lay-lay deyir bu axşamlar.*  
*Hər axşamın səhəri var...*

və ya:

*Qoy mən yenə söhbət açım*  
*ilk baharımdan,*  
*Nəğməm ilə bir də keçim*  
*öz diyarımdan.*  
*Bol bəhrəli Muğan düzü,*  
*Mil düzü, Şirvan düzü,*  
*Gəl, gəl deyir şən Azərbaycan!..*

yaxud:

*Payız gəldi, uçdu, getdi quşlar,*  
*Sən də getdin, bax, yağdı yağışlar.*  
*Payız gəldi, qərib oldu dəniz,*  
*Bu dənizin gözü yaşlı sənsiz...*

Neçə-neçə gözəl filmimizdəki musiqi mətnlərinin müəllifi də Fikrət Qocadır. "Müsyö Jordan və Dərviş Məstəli şah", "Onu bağışlamaq olarmı?", "Qayınana", "Baladadaşın ilk məhəbbəti"... Yəqin xatırladınız o nəğmələri... Beləcə, Salatın Əhmədli "Fikrət Qocanın musiqi dünyası"nı da sevə-sevə araşdırıb.

Müəllif kitabın digər bölümlərində düşüncə və fikir şairinin klassik irsə münasibətindən, sözə, sənətə hörmətini təhlil müstəvisinə çıxarır. O, "Fikrət Qoca poeziyasında ana-qadın obrazı"nın möhtəşəmliyindən də bəhs edir və bu fikrini şairdən gətirdiyi nümunlərlə təsdiqləyir.

*Qadın evdə işıqdı,*  
*Ailədə ocaqdı...*

yaxud

*O, dən göyərdən, insan yetirəndi*  
*Qadın peyğəmbər deyil!*  
*O, peyğəmbərləri dünyaya gətirəndi!..*

Bir sözlə, bu dəfə oxucu çağdaş poeziyamızın canlı korifeyi Fikrət Qocanı, Fikrət Qoca poeziyasını Salatın Əhmədlinin prizmasında yenidən kəşf edir, tanıyır və sevir. Heç şübhəsiz, ədəbiyyatımızın Fikrət Qocasının yeni nəslə tanıdılmasında da bu kitab faydalı ola bilər. Elə isə böyük zəhmətin bəhrəsi olan monoqrafiyaya görə Salatın Əhmədliyə minnətdarlıq düşür. Kitabın təqdimatında səslənən alqışlar və Fikrət Qocanın "İnsan hissiyatı, insan yanaşması var bu kitabda, çox əziyyət çəkmisiniz, təşəkkür edirəm!" deyə ona uzatdığı bir dəstə çiçək də bu minnətdarlığın gözəl ifadəsi idi...

***Firuzə NADİR***